*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    27 iyul 2016-cı il    № 57 (2072)    Qiymətı 25 qəpik


## Müdafiə naziri cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub

### Həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular Müdafiə nazirinə müraciət ediblər



***Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub.***

Ön xətdə, düşmənlə üz-üzə səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri müdafiənin dayanıqlığı, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı ilə tanış olub, komanda-müşahidə məntəqəsindən düşmənin mövqelərini izləyib.

Əsgərlərlə nahar edən Müdafiə naziri ön xətdə şəxsi heyətin sosial-məişət şəraitinin daima yaxşılaşdırılması ilə bağlı görülən işlərlə də maraqlanıb və müvafiq tapşırıqlar verib.

Aprel döyüşlərinin iştirakçıları, hazırda həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular Müdafiə nazirinə müraciət edərək xidməti başa vurduqdan sonra da torpaqlarımız işğaldan tam azad olunanadək hərbi xidmət etmək arzusunda olduqlarını bildiriblər.

Şəxsi heyət Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etdiyini və Ali Baş Komandanın əmri ilə respublikamızın ərazi bütövlüyünün təmin olunması, işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda döyüşə hər an hazır olduğunu bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## "Türkiyədə dövlət çevrilişinə cəhddən dərhal sonra Azərbaycan bizə güclü dəstək verdi"

Türkiyədə dövlət çevrilişinə cəhddən dərhal sonra gözlədiyimiz kimi, qardaş Azərbaycan bizə güclü dəstək verdi. Azərbaycanlı qardaşlarımız yalnız telefonlarla deyil, həm də atdıqları addımlarla Türkiyənin yanında olduqlarını bir daha göstərdilər. Qardaşlıq da məhz budur. Bir millət olmaq bunu tələb edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Habertürk" televiziyasına müsahibəsində deyib.

Müsahibəsində, həmçinin Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması istiqamətində danışıqların son vaxtlar intensivləşdiyini vurğulayan M.Çavuşoğlu deyib: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində Rusiyanın, Minsk Qrupu həmsədrlərinin təşəbbüsləri artıb. Bildiyimiz kimi, Sankt-Peterburqda Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş keçirildi və bəzi təkliflər oldu. Biz bütün bu məsələlərdə hər zaman Azərbaycanın yanındayıq. Azərbaycana son səfərim zamanı qardaş ölkənin məsələnin həlli ilə bağlı qəbul edəcəyi bütün təklifləri dəstəkləyəcəyimizi və bəzi məsələlərdə birlikdə addımlar ata biləcəyimizi də müzakirə etdik".




"Kaş ki, aprel döyüşlərində mən də olaydım..."

3-cü səhifədə



Vətən andı pozulmaz

4-cü səhifədə



Peşəyə vurğun olanda...

7-ci səhifədə



"Biz Qarabağda da qələbə qazanacağıq"

8-ci səhifədə

# "Dövlətimizin diqqət və qayğısı nəticəsində ordu quruculuğunda mühüm addımlar atılıb"

## Respublika Hərbi Prokurorluğunda geniş kollegiya iclası keçirilib

***İyulun 26-da Azərbaycan Respublikası Hərbi Prokurorluğunda bu qurumun rəhbər heyətinin, Naxçıvan Muxtar Respublikası və ərazi hərbi prokurorlarının iştirakı ilə 2016-cı ilin birinci yarısında görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.***



Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən Azərbaycan Respublikası baş prokurorunun müavini - hərbi prokuror ədliyyə general-leytenantı Xanlar Vəliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin milli dövlətçilik kursunu və siyasi irsini zamanın tələblərinə uyğun təkmilləşmiş formada uğurla davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində dövlət müstəqilliyimizin daha da möhkəmləndirildiyini, demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndiyini diqqətə çatdırıb.

Son illər Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində mühüm islahatların aparıldığını söyləyən hərbi prokuror qeyd edib ki, dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində ordunun maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Bunun nəticəsində ordunun döyüş qabiliyyəti daha da yüksəlib və şəxsi heyətin nizam-intizamı güclənib. "Bu gün Azərbaycan Silahlı Qüvvələri ən güclü ordular sırasındadır. Aprel ayında təmas xəttində Ermənistanın törətdiyi təxribatın qarşısının ordumuz tərəfindən igidliklə alındığı bunu bir daha sübut edib."

Hərbi prokuror qeyd edib ki, əvvəlki hesabat dövrü ilə müqayisədə 2016-cı ilin birinci yarısında qeydə alınmış bütövlükdə hərbi xidmət əleyhinə cinayətlər, o cümlədən konkret olaraq tabelik qaydası əleyhinə, hərbi xidmətdən yayınma, həmçinin hərbi hissəni və xidmət yerini özbaşına tərk etmə, odlu silah, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə, xüsusilə qəsdən adam öldürmə və özünü öldürmə həddinə çatdırma cinayətlərinin sayı əhəmiyyətli dərəcədə azalıb. Hərbi hissəni və ya xidmət yerini müharibə vaxtı və ya döyüş şəraitində özbaşına tərketmə faktları, ümumiyyətlə, törədilməyib. Qeydə alınmış cinayətlərin 99.6 faizi, o cümlədən bütün ağır və xüsusilə ağır cinayətlərin açılması təmin olunub. Bu növ cinayət hadisələrinin azalmasında hərbi prokurorluq orqanlarının Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlarla qarşılıqlı, sağlam və işgüzar əlaqələrinin yaranmasının, habelə təsdiq edilmiş plan əsasında həyata keçirilən birgə tədbirlərin çox böyük əhəmiyyəti olub.

Məruzədə bildirilib ki, Silahlı Qüvvələrdə və qanunvericilikdə nəzərdə tutulmuş başqa silahlı birləşmələrdə cinayətlərin qarşısının tam alınması üçün həmin cinayətlərin məhkəmə və istintaq təcrübəsi vaxtaşırı ümumiləşdirilməklə Respublika Hərbi Prokurorluğunun kollegiyalarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilib. Həmin cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair kollegiyanın qərarlarına əsasən, silahlı birləşmələrin komandanlıqlarına təqdimatlar, ərazi hərbi prokurorlarına icmal-məktublar göndərilib. Müdafiə Nazirliyi və digər qurumlarla birlikdə tədbirlər planları hazırlanaraq təsdiq edilib və icrası təmin olunub. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Vurğulanıb ki, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə Milli Məclisin "28 May - Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 2016-cı il 20 may tarixli qərarının Respublika Hərbi Prokurorluğu orqanları tərəfindən vaxtında icra olunması istiqamətində işlər davam etdirilir. Hazırda 38 hərbi qulluqçuya amnistiya aktı tətbiq olunub.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın, eləcə də bu il yanvarın 26-da Prezident İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqində qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar hərbi prokurorluq orqanları mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən biri olan korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətini daha da gücləndirib. Bu da Silahlı Qüvvələrin qüdrətini zəiflədə biləcək cinayətlərin, o cümlədən mənimsəmə, israfçılıq, rüşvətxorluq, vəzifədən sui-istifadə etmə və digər cinayətlərin vaxtında aşkar olunmasına və qarşısının alınmasına şərait yaradıb.

Diqqətə çatdırılıb ki, respublikanın hərbi prokurorluq orqanları tərəfindən 2016-cı ilin birinci yarımilində korrupsiya hallarına qarşı mübarizə sahəsində müvafiq işlər görülərək bu xarakterli faktlar üzrə 76 şəxs barəsində 61 cinayət işinin istintaqı tamamlanaraq aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib.

Bu ilin birinci yarımilində Azərbaycan Respublikasının hərbi prokurorluq orqanlarında vətəndaşların 995 müraciətinə baxılıb, 478 vətəndaş mərkəzi aparatda qəbul olunub, ərazi hərbi prokurorluğunda 1497 vətəndaşın fərdi qəbulu aparılıb. Bilavasitə hərbi hissə və birləşmələrdə 1206 nəfər qəbul edilərək müraciətləri üzrə müvafiq qərarlar verilib. Kollegiyada "Vətəndaşların müraciətləri haqqında" Qanunun hərbi prokurorluq orqanlarında icrası və dövlətimizin başçısının vətəndaşməmur münasibətlərinin sağlam zəmində qurulması, vətəndaş məmnunluğuna nail olunması ilə bağlı tapşırıqları xüsusi vurğulanıb.

Kollegiyada hərbi prokuror ədliyyə general-leytenantı Xanlar Vəliyev Xocalı, Qaradağlı, Meşəli, Bağanis-Ayrım faciələri, terror, habelə əsir düşmüş şəxslərə işgəncə verilməsi və erməni silahlı qüvvələrinin törətdikləri digər cinayət əməlləri ilə bağlı hərbi prokurorluqda aparılan istintaq barədə məlumat verərək bildirib ki, həmin cinayət işi üzrə hazırda intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Hərbi prokuror qeyd edib ki, apreldə qanunsuz erməni silahlı birləşmələri atəşkəs rejimini və beynəlxalq hüququn tələblərini kobud şəkildə pozaraq Azərbaycanın cəbhəboyu, həmçinin, təmas xəttinə yaxın olmayan yaşayış məntəqələri və mülki obyektləri iriçaplı silahlardan, mina və qumbaraatanlardan, artilleriya qurğularından intensiv atəşə tutmuşlar. "Ermənistan silahlı qüvvələri tərəfindən milli ədavət və düşmənçilik niyyəti ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının qəsdən öldürülməsi və qəsdən öldürməyə cəhd faktlarına görə Azərbaycan Respublikası Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq-əməliyyat qrupu yaradılıb. İstintaq-əməliyyat qrupu tərəfindən qısa müddət ərzində çoxsaylı istintaq hərəkətləri yerinə yetirilib və döyüş əməliyyatlarında həlak olan hərbi qulluqçuların meyitləri müayinə olunub. İstintaq qrupunun üzvləri xidməti vəzifələrini gərgin şəraitdə, yüksək peşəkarlıqla yerinə yetirərək müxtəlif dərəcəli bədən xəsarətləri almış hərbi qulluqçuların məhkəmə-tibbi müayinədən keçirilməsi, onların zərərçəkmiş şəxs qismində tanınmaqla dindirilmələri, müvafiq olaraq məhkəmə-tibbi, kompleks məhkəmə ballistik və digər ekspertizalar təyin edərək icraya yönəldilməsi vaxtında tam təmin olunub."

Ədliyyə general-leytenantı Xanlar Vəliyev beynəlxalq humanitar hüquq normalarında təsbit edilmiş qaydalara məhəl qoymayan Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinin atəşə tutulduğu zaman yaşayış məntəqələrinə və mülki əhaliyə qarşı qadağan olunmuş mərmilərdən istifadə olunduğunu bildirib. Qeyd edib ki, Tərtər rayonunun cəbhəyanı Əskipara kəndi ərazisində Ermənistan silahlı qüvvələrinin atdığı partlamamış kimyəvi tərkibli top mərmisi aşkar olunub. Həmin mərmi Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) əməkdaşları tərəfindən mayın 11-də müvafiq təhlükəsizlik qaydalarına riayət edilməklə zərərsizləşdirilib.

"Bu tip kimyəvi tərkibli mərmilərdən istifadə etməklə Ermənistan silahlı qüvvələri 1949-cu il "Müharibə qurbanlarının qorunması haqqında Cenevrə Konvensiyası"nı və həmin Konvensiyaya 1977-ci ildə qəbul edilmiş əlavə protokolları, "Adi silahların konkret növləri haqqında Konvensiya"nın III (1980-ci il), eləcə də "Kimyəvi silahların istehsalı və tətbiqinin qadağan olunmasına dair" BMT-nin 1992-ci il 30 noyabr tarixli Konvensiyasının müddəalarını kobud şəkildə pozublar.

Bildirilib ki, hesabat dövründə hərbi qulluqçuların hüquqi maarifləndirilməsi sahəsində də müəyyən işlər görülüb. Qanunvericiliyin öyrənilməsi ilə əlaqədar "hərbi prokurorluq orqanları ilə Silahlı Qüvvələrdə hüquq qaydalarının, hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin xəbərdarlıq edilməsi və aradan qaldırılması sahəsində Respublika Hərbi Prokurorluğunun, Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili Qoşunlarla birgə Tədbirlər Planı"na əsasən, Hərbi Prokurorluğun əməkdaşları müntəzəm olaraq hərbi hissələrdə olub, hərbi qulluqçular qarşısında çıxışlar və mühazirələr edib, söhbətlər aparıb, xidmətdə fərqlənən hərbi qulluqçulara qiymətli hədiyyələr verilib.

Respublika hərbi prokuroru ədliyyə general-leytenantı Xanlar Vəliyev kollegiyaya yekun vuraraq bildirib ki, hərbi prokurorluq orqanları Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi yüksək qayğı və etimadı layiqincə doğrultmaq, qanunun aliliyini, hərbi idarəçilik orqanlarında insan və vətəndaş hüquq və azadlıqlarına dönmədən əməl olunmasını, habelə cinayətkarlığa qarşı mübarizəni təmin etmək üçün bütün zəruri tədbirləri bundan sonra da dönmədən həyata keçirəcəklər.

**AZƏRTAC-ın materialları əsasında**

Ön xətdən reportaj

# “Kaş ki, aprel döyüşlərində mən də olaydım...”

*Ezamiyyətə gedəndə adətən qatara üstünlük verirəm, çünki həm rahat yol gedirsən, həm də vaxta qənaət edirsən. Hələ yol uzunu rastıma çıxan maraqlı insanları demirəm. Bu dəfə də ezamiyyətə qatarla getmək qərarına gəldim, vaxtında bilet alıb yola çıxdım. Kupeyə daxil olan cavanlardan biri ilə səmimi söhbətimiz alındı. Öyrəndim ki, bu ayın əvvəlində ordudan tərxis olunub. Cəbhə bölgələrindən birində Vətənə övladlıq borcunu şərəflə yerinə yetirmiş ağdamlı gəncin qürurlu baxışları diqqətimi cəlb etmişdi. "Kaş ki, aprel döyüşlərində mən də olaydım, itirdiyimiz şəhidlərin intiqamını alaydım. Uzun illərdən sonra düşmən işğalından azad edilən torpaqlara mənim də ayağım dəyəydi...", - deyir. Vətənpərvər gəncimizlə tanışlıq ürəyimdən oldu, onun ordu ilə bağlı xatirələrini maraqla dinlədim. Bu bir həqiqətdir ki, ordu sıralarında keçən qısa ömür gənclərimizə həm həyat vərdişləri aşılayır, həm də onlara Vətəni qorumağı öyrədir.*





Hərbi hissəyə çatanda şəxsi heyətin səhər yerbəyeri təzəcə başlayırdı. Gün ərzində yerinə yetiriləcək vacib tapşırıqlar müzakirə edilir, bölmə komandirlərinə lazımi göstərişlər verilirdi. Sonra bir nəfər zabitlə ön xəttə yola düşürük. İstilər düşməmiş mənzil başına yetişmək, üzərimə düşən vəzifə borcumu yerinə yetirmək istəyirdim. Beləliklə, tez bir vaxtda ön xətdə yerləşən tabora gəlib çatırıq. Burada kapitan Qəmbər Paşayevlə görüşürəm, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabit son günlər düşmənlə təmas xəttində sakitliyin hökm sürdüyünü bildirərək deyir:

- Açığı, aprel döyüşlərindən sonra düşmənin səs-səmiri kəsilib. Bir neçə günlük döyüşlərdə ordumuzun güclü müqaviməti ilə rastlaşan işğalçılar öz qınlarına çəkiliblər. Amma belə sakitlik bizi qətiyyən arxayınlaşdırmır, bilirik ki, düşmən məkrlidir, ondan istənilən vaxt təxribat gözlənilə bilər.

İsti yay günlərində bölmələrin əsas qayğılarından danışan zabitə görə, hər bir əsgəri günvurmadan qorumaq üçün lazım olan bütün tədbirlər görülüb. Aparılan profilaktik işlərin nəticəsi olaraq heç bir günvurma faktı qeydə alınmayıb. Hərbi hissənin tibb xidməti zabitləri, feldşerlər də müntəzəm olaraq şəxsi heyət arasında maarifləndirici söhbətlər aparırlar. Yeri gəlmişkən bir məsələni qeyd edim ki, müasir tibb elminin tələbləri səviyyəsində fəaliyyət göstərən səhra hospitallarında istənilən yaralıya, xəstəyə yerindəcə yüksək tibbi xidmət göstərmək mümkündür. Əlbəttə, bunun üçün dövlətin və ordunun rəhbərliyi tərəfindən hərbi səhiyyənin inkişaf etdirilməsinə göstərilən qayğını qeyd etmək yerinə düşərdi.

Kapitanla birgə döyüş növbələrində olan əsgərlərin görüşünə gedirik. İlk postda dəbilqəli, jiletli bir gənc zabitlə tanış oluruq. Öyrənirəm ki, taqım komandiri baş leytenant Ramiq Osmanovdur. Zabit son döyüş vəziyyəti barədə məruzə edir və cəbhə xəttində hazırda nisbi sakitliyin davam etdiyini bildirir. "Əsgərlərimizin hər biri yaxşı bilir ki, döyüş növbəsi onun üçün ciddi sınaqdır. Buna görə də gənclər həm təhlükəsizlik qaydalarına riayət edir, həm də qarşı tərəfin mövqelərini diqqətsiz qoymurlar. Vətənpərvər döyüşçülərimiz istənilən təxribatın qarşısını vaxtında almağa tam qadirdirlər", - deyir baş leytenant.



## “Atamın yolunu davam etdirməyə söz vermişəm”

Ön xətdəki bölüyün komandir müavini Şahgəldi Atalızadə mülki ali məktəblərdən birini bitirib və zabit kimi ordu sıralarında həqiqi hərbi xidmətə çağırılıb. Bu yaxınlarda xidmət müddəti başa çatmış gənc ordu sıralarında kadr heyətinə keçirilməsi üçün komandanlığa müraciət edib. Əslən Cəbrayıl rayonunun Mehdili kəndindən olan zabitin orduda qalmasının özəl səbəblərindən biri onun valideynləri ilə bağlıdır. Gəlin, leytenantın söhbətinə diqqət yetirək.

- Gözümü açan gündən atamı hərbi formada görmüşdüm, - deyir. - Valideynlərimin hər ikisi ixtisasca həkimdir. Doğma el-obamız erməni hərbi birləşmələrinin təcavüzünə məruz qalanda atam nüfuzlu vəzifəsini ataraq orduya gedib. Anam da özünümüdafiə taborunda həkim kimi çalışıb, atamla çiyin-çiyinə yaralı döyüşçülərə tibbi xidmət göstəriblər. Sonradan atam tibb zabiti kimi xidmətini Silahlı Qüvvələrimizin başqa hərbi bölmələrində davam etdirdi. Bu yaxınlarda atamı itirdik, həyatdan vaxtsız köçdü. Məzuniyyətdə olanda bir gün anama qəti söz verdim ki, qalıb orduda zabit olacağam və atamın yolunu davam etdirəcəyəm.

Əslində, həmsöhbətim olan gənc zabitin layiqli ailə tərbiyəsi öz bəhrəsini verib. Erkən çağlarından, özünün də dediyi kimi, həyatı başa düşən gündən ailədə qazandığı vətənpərvərlik hissləri onu mülki təhsildən birbaşa hərbi xidmətə gətirib. Bu gün doğma elobasının düşmən işğalında qalmasından hiddətlənən yüzlərlə, minlərlə vətənpərvər soydaşımız kimi onun da seçimi ürəyincədir. Hesab edirəm ki, qəlbi Vətən sevgisi ilə döyünən dəyərli zabitin tabeliyindəki əsgərlər də sabahın hazırlıqlı döyüşçüləri olacaqlar.

## Qəhrəmanlıq və həyat məktəbi

Ön xətdəki bölmələrdən hazırladığım yazıların bir çoxunda qeyd etmişəm ki, cəbhə bölgəsi ifadəsini işlədəndə, hər şeydən əvvəl nəzərimdə gənclərimizin qəhrəmanlıq ruhunda yetişmələrinə zəmin yaradan bir məkan canlanır. Doğrudan da, cəbhə bölgəsi Vətənimizi düşməndən göz bəbəyi kimi qoruyan mətin, cəngavər oğulların ünvanıdır. Bu dəfə də belə gənclərimizin neçəsi ilə tanış olmaq fürsəti qazandığım üçün qürurluyam. Sahib Qasımov Göyçay rayonundan orduya çağırılıb. O da yüzlərlə həmyaşıdı, silahdaşı kimi hərbi xidmətə gələndə Vətənimizi şərəflə qoruyacağına söz verib.

- Sahib, artıq orduda xidmətini başa vurmağına bir neçə ay qalıb. Sənin fikrincə, hərbi xidmətdə nələri, hansı vərdişləri qazanmısan?

- Çox şey qazanmışam və ən başlıcası həyatın nə demək olduğunu burada öyrənmişəm. Bəziləri düşünə bilər ki, cəbhə bölgəsində xidmət etmək çətindir, amma bu çətinliklər bizə mənəvi dəyərlər aşılayır. Vətənə sədaqətli övlad olmağı, gələcək müstəqil həyatda layiqli vətəndaş kimi yer tutmağı məhz ordu mühitində öyrənirik. Komandirlərimizə çox minnətdarıq, onlar bizə təkcə silah-sursatı öyrətmir, həm də çətinliklərə sinə gərməyi, dözümü, cəsarəti aşılayırlar. Bu gün zabitlər aprel hadisələrindən dönə-dönə söhbət açır, çox qısa müddətdə qazanılan qələbədən fərəhlə danışırlar.

Cəlilabad rayonundan olan əsgər Nəcməddin Şahsuvarov isə qumbaraatan vəzifəsindədir. O da Sahib kimi ordunu bir həyat məktəbi kimi dəyərləndirir və gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm mərhələ hesab edir. "Orduya çağırılanda cəbhə xəttində xidmət edəcəyimi bildim və məsuliyyətim daha da artdı. Axı burada Vətənin, el-obanın keşiyində dayanırsan, bu müqəddəs vəzifə həm də məsuliyyətli olmağı tələb edir. İndi hərbi xidmətimin yarıdan çox hissəsini keçirmişəm, lazımınca döyüş vərdişlərinə alışmışam. Deməli, Vətənimi qorumağa qadir bir döyüşçüyəm.

## “Veteranlar ailəsində böyümüşəm”

Müddətdən artıq həqiqi hərbi xidmətdə olan kiçik çavuş Rəşad Quliyevin şəxsi heyət arasında hörməti böyükdür. Bir vaxtlar cəbhə bölgəsində hərbi xidməti keçən gəncə görə, bu gün ekstremal şəraitdə xidmət etmək ona çətin deyil.

Tərtər rayonundan olan sanitar-təlimatçı deyir ki, veteranlar ailəsində böyüyüb. Atası və əmiləri Qarabağ müharibəsində iştirak ediblər. "Atam həmişə mənə hərbçi olmağın nə qədər şərəfli olduğunu izah edib. Deyib ki, Vətəni qoruyan adamlara cəmiyyətdə hər zaman böyük hörmət və ehtiram vardır. İndi ordumuzun sıralarında hərbi peşə sahiblərindən biri kimi üzərimə düşən vəzifə borcumu inamla yerinə yetirirəm. Qürurluyam ki, müqəddəs bir vəzifədə xalqıma, Vətənimə xidmət edirəm. Aprel döyüşlərindəki qələbə ruhumuzun, hisslərimizin qələbəsi oldu. Azərbaycan əsgəri öz mərdliyini, Vətəninə və dövlətinə sədaqətini dünyaya sübut etdi. Bu qısamüddətli döyüşlərdə qazandığımız qələbə düşmənə güclü mesaj idi, onlar yaxşı bildilər ki, hazırlıqlı ordumuzun qarşısında heç bir qüvvə tab gətirə bilməz."

Səngərlərdə görüşdüyüm gənclərimizin hər birinin sinəsində böyük ürəyin döyündüyünü bir daha hiss etdim. Vətəni qorumağı müqəddəs borc bilən bu oğullar hər addımda düşmənə cavab verməyə hazırdırlar.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**



# Hərbi Akademiyanın Təkmilləşdirmə Kursunun növbəti buraxılışı keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyasının Təkmilləşdirmə Kursunun 51-ci buraxılışı keçirilib.

Mərasimdə ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azad edilməsi uğrunda şəhid olmuş zabit və əsgərlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından buraxılış münasibətilə zabitləri təbrik edib.

Sonda məzunlara sertifikatlar təqdim olunub və xatirə şəkli çəkdirilib.



*Hər bir insanın həyatında unudulmaz anlar, xatirələr var. O xatirələr ki, düşmənlə üz-üzə dayandığın şərəfli günlər yaddaşına gözəl dostluqlarla həkk olunub. Yolumuz adı çəkiləndə qədim tarixi, gözəl təbiəti, folkloru ilə məşhur olan Gədəbəy rayonunadır. Gədəbəy adı çəkiləndə bütün bu gözəlliklərlə yanaşı, "N" hərbi hissəsində Vətənə xidmət etdiyim günlər, Nahid Tağıyev, Rəşad Hüseynzadə, Tural Günəşov və başqa əziz əsgər dostlarım canlanır gözümdə.*

# Vətən andı pozulmaz



Yolboyu fotoqrafımızla söhbət edir, bacardığım qədər bu yerlər barədə məlumat verməyə çalışıram. Yasamal aşırımında dağlardan süzülüb gələn bulaq suyundan içirik. Bulaq başında oturan ağsaqqallar bizi süfrəyə dəvət edirlər. Lakin əsgərlərimizlə görüşə tələsdiyimizi bildirib yolumuza davam edirik. Gör nə gözəldir Vətənimin təbiəti, Vətənimizin insanları!..

Hərbi hissəyə çatanda zabit Rüstəm Məmmədovla görüşürük. O, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ilə məşğul olan məsul zabitlərdəndir. O, mənfur düşmənin atəşkəsi pozduğu hallarda, cəsur Azərbaycan əsgərinin onu cavab atəşi ilə susdurmasından fərəhlə danışır.

Sonra zabit Eldəniz Nəsirovla həmsöhbət oluruq. O, ermənilərin qorxaqlığı və hiyləgərliyindən söz açaraq bildirir ki, bu gün Azərbaycan regionda ən güclü orduya malik olan dövlətdir. "Düşmən artıq qarşısında duran güclü ordunun, Vətənini sevən əsgərin, ən müasir texnikanın qorxusunu hiss edir. Nəinki erməni rəhbərliyi, hətta ən sadə vətəndaşı belə bilir ki, Azərbaycan mütləq öz tarixi torpaqlarını geri qaytaracaq."

Zabit həmçinin qeyd edir ki, Silahlı Qüvvələrimiz dövlət rəhbərliyinin böyük qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsini yaşayır. "Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb", - deyir.

Müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırmaqda və hərbi qüdrətini yüksəltməkdə tam haqlıdır.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsi ordumuzun gücünü artırır, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldir.

Söhbətimizə qoşulan zabit Elşad Kazımov isə bildirir ki, Azərbaycanın hərbi potensial baxımından Ermənistandan hazırkı üstünlüyü heç də birdən-birə, təsadüfən meydana gəlməyib. "Müasir səviyyədə qurulan ordu həm müstəqilliyin möhkəmlənməsində, həm də ölkənin bölgədə geopolitik güc mərkəzinə çevrilməsində önəmli rol oynayır", - deyən zabit Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə ifadə edən sözlərini xatırladır: "...Biz bütün sahələrdə, orduda gedən proseslərin inkişafına çalışırıq... Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir."

Vaxt itirmədən ön səngərə doğru yola düşürük. Çətin keçilən dağ yolları ilə irəliləyirik. Dağlara qalxdıqca hava soyuyur, buludlar sanki bizdən aşağıdadır.

Baş leytenant Anar Xalverdiyev mayor Rüstəm Məmmədova heç bir hadisənin baş verməməsi, nisbi sakitliyin olması ilə bağlı məruzə edir.

Gənc zabit Xaçmaz rayonunda anadan olub. 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Anar dünyaya göz açdığı bölgədən yüzlərlə kilometr uzaqda, minlərcə metr yüksəklikdə Vətənin keşiyində dayanmasından fərəh hissi keçirdiyini bildirir.

- Əsgərlərimiz vətənpərvər, məsuliyyətli və öz vəzifələrinin öhdəsindən gəlməyə qadirdirlər. Hər biri işğalda olan torpaqlarımızın həsrəti, erməniyə nifrət hissi ilə yaşayır. Həmçinin Müdafiə naziri general-polkovnik Zakir Həsənovun döyüş postuna gəlməsi, əsgərlərimizə mükafatlar təqdim etməsi şəxsi heyətin həyatında unudulmaz xatirəyə dönür. Dumanlı dağların zirvəsində olsalar da, unudulmaz dıqlarını, diqqət mərkəzində olduqlarını bilən əsgərlər silaha ürəklə sarılıb, düşmənin istənilən təxribatının qarşısını almağa hazırdılar, - deyir gənc zabit.

Barıt qoxulu mərd oğulların hər gün düşmənlə üz-üzə dayandığı səngərlərlə irəliləyirik. Döyüş növbəsində duran hər bir əsgərimizin tutduğu mövqe qala, əsgərimiz isə qalası uğrunda canından keçməyə hazır qəhrəmandır. Əldə silah, ürəkdə Vətən sevgisi varkən bu qalanı heç kim fəth edə bilməz.

Pulemyot manqasının tuşlayıcısı əsgər İbrahim Vəliyev öz alınmaz qalasında növbədədir. Barmağını tətikdən, gözünü nişangahdan ayırmayan əsgər hesab edir ki, ani məsuliyyətsizlik düşmənin təxribat törətməsinə yol aça bilər.

"Artıq 13 aydır hərbi xidmətdəyəm. Azərbaycan Ordusunun əsgəri olmaqdan qürur duyuram. Niyə də qürur duymayım? Qorxan tərəf biz yox, ermənilərdi. Aprel döyüşlərində döyüş postlarını qoyub qaçan ermənilər, bir gün işğal etdikləri torpaqları da atıb qaçacaqlar. Həqiqətən də, tarixdə hiyləgərlik, qorxaqlıq və bir çox mənfi xüsusiyyətlərlə ad qoymuş düşmənlə üz-üzəyik. Və Ali Baş Komandanın bir döyüş əmri ilə ermənilərin qaçacağına hər birimiz əminik. Atalar yaxşı deyib: "Qorxaq qaçar hay gəlməmiş, çırmanar keçməyə çay gəlməmiş".

Əslən Ağdaş rayonundan olan əsgər Aqşin Qarayev isə deyir ki, gənc əsgər olarkən nizam-intizamlı olmağa çalışır, silahların taktiki-texniki xüsusiyyətlərini həvəslə öyrənirdim. "Çünki döyüş postuna gəlməyin, düşmənlə üz-üzə dayanıb qarşında mən varam, sən heç kimsən, deməyin arzusundaydım. Və şükürlər olsun ki, bu arzum çin oldu. Döyüş postuna gəldim, ən əsası aprel döyüşləri zamanı torpaqlarımızın bir qismi geri alındı. Bu, Azərbaycan əsgərinin uğurudu, bizim uğurumuzdu."

- And içmişik, Vətən andı pozulmaz, - deyir əsgər Kibar Mirzəyev. - Biz ata-babalarımızdan, tariximizdən öyrənmişik Vətən sevgisini. O sevgi ki, canını, qanını bir an belə əsirgəməzsən. Uğrunda canından keçərsən. Bizlər and içmişik Vətənə, Vətən torpağına sadiq olacağımıza. Vətən andı pozulmaz.

- Artıq xidmətimin böyük bir hissəsi geridə qalıb. 13 aydır ki, Vətənim Azərbaycanın keşiyində dururam. Məndən sonra gələn əsgərlərə bacardığım qədər bildiklərimi öyrətməyə çalışıram. Hər zaman demişəm, indi də deyirəm ki, şəhidlik olsun qismətimiz, təki ruhumuza bütöv Azərbaycanın ərazilərində gəzmək nəsib olsun, - deyir Həbib Cabbarov.

Əsgər Rizvan Şirməmmədov isə 7 aydır ki, doğulub boya-başa çatdığı Cəlilabaddan Vətənin keşiyində durmağa yollandığını bildirərək deyir:

- Ali Baş Komandanımızın əmr verdiyi gün silahım əlimdə, əsgər yoldaşlarımla Vətənim uğrunda döyüşlərə qatılacağam. Tək məqsədimiz var: torpaqlarımızı azad etmək... Düşmən üzərinə getmək, şəhidlərimizin qanı üçün qan, canı üçün can almaqdır niyyətimiz. Çünki biz qorxmaz, cəsur, mərd Azərbaycan əsgəriyik."

Qəlbdə Vətən sevgisi, ürəkdə torpaq həsrəti, gözlərdə düşmənə nifrət, əldə silah, dildə "Təki Vətən sağ olsun" şüarı... Budur, Azərbaycan əsgərinin düşüncəsi, məqsədi...

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu", foto Mahmud MÖHBALIYEVİNDİR**

# Aprel döyüşlərinin şəhidləri Azərbaycan əsgərinin nəyə qadir olduğunu bir daha təsdiq etdilər

***İsmayıllıdakı Heydər Əliyev Mərkəzində manqa komandiri şəhid Vahabzadə Mikayıl Yaqub oğlunun xatirəsinə həsr olunan tədbir keçirilib. Mikayıl Vahabzadə İsmayıllının Maçaxı kəndində boya-başa çatıb. Aprelin əvvəllərində ermənilərə qarşı döyüşlərdə şəhid olub.***



Müdafiə Nazirliyinin və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Xalqımıza qələbə sevincini yaşadanlar" silsiləsindən keçirilən tədbirdə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri açan rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində göstərdiyi xidmətlərdən, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə güclənən ordumuzun qüdrətindən söz açıb.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxışında aprel döyüşlərindən danışaraq deyib: "Aprel döyüşlərində şəhidlər verdik. Bu şəhidlər döyüş meydanlarında rəşadət və şücaət göstərərək Azərbaycan əsgərinin nəyə qadir olduğunu bir daha təsdiq etdilər". A.Qurbani ölkə rəhbərliyi tərəfindən şəhidlərin xatirəsinin yüksək tutulduğunu, fəxri adlar, döyüş ordeni və medalları ilə təltif olunduqlarını diqqətə çatdırdı. Bildirdi ki, uzun illər sonra xalqımıza qələbə sevinci yaşadan gənclərdən biri də Vahabzadə Mikayıl Yaqub oğludur.

Sonra polkovnik Abdulla Qurbani "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı şəhidin atası Yaqub Vahabova təqdim etdi.

Şəhidin babası Akif Mustafayev çıxış edərək, göstərdikləri diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirdi.

Sonda Abdulla Qurbani "Ruhumuzun qələbəsi naminə" kitab-albomunu Heydər Əliyev Mərkəzinə hədiyyə etdi.

**AZƏRTAC**

# Şəhidlərin təltif olunduqları medallar valideynlərinə təqdim edilib

***İyulun 23-də Şamaxıda Müdafiə Nazirliyi və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Milli ordumuz milli qürurumuzdur" devizi altında vətənpərvərlik tədbiri keçirilib.***



AZƏRTAC xəbər verir ki, tədbirdə Müdafiə Nazirliyinin rəsmiləri, rayon rəhbərliyi, veteranlar, şəhid ailələri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Asif Ağayev Azərbaycan Silahlı Qüvvələrinin yaranması tarixindən, ulu öndər Heydər Əliyevin ordu quruculuğunda müstəsna xidmətlərindən və bu siyasətin bu gün də Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıb. Qeyd edilib ki, Azərbaycan Ordusu son illərdə daha da qüdrətlənib, maddi-texniki bazası möhkəmləndirilib, ən müasir texnika və silah-sursatla təchiz olunub. Azərbaycan Silahlı Qüvvələri bu gün qarşısına qoyulan hər hansı döyüş tapşırığını yerinə yetirməyə tam qadirdir.

A.Ağayev aprel döyüşlərinin bir daha Azərbaycan Ordusunun gücünü, xalqımızın həmrəyliyini, ölkə rəhbərliyinin qətiyyətini göstərdiyini vurğulayıb. Qeyd olunub ki, Azərbaycan əsgəri aprel döyüşləri zamanı qazandığı uğur və qələbələrlə xalqımıza zəfər sevinci yaşadıb. Həmin döyüşlərdə şamaxılı vətənpərvər igidlər də qəhrəmanlıq göstəriblər. Onlardan üç nəfəri şəhidlik zirvəsinə ucalıb.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Azərbaycan Ordusunun qüdrətindən söz açıb, Azərbaycan əsgərinin Ali Baş Komandanın əmri ilə hər an döyüşə hazır olduğunu diqqətə çatdırıb. Bildirib ki, şəhidlərin intiqamı düşməndən alınır və bundan sonra da alınacaq, Azərbaycan əsgəri tezliklə xalqa qələbə sevinci yaşadacaq.

Sonra polkovnik A.Qurbani qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan əsgərlərimizin şücaətindən danışaraq bildirib ki, Şamaxı rayonunun Çuxuryurd kəndindən olan manqa komandiri Kaçayev Samir Ziyətdin oğlu "İgidliyə görə" medalı ilə, Göylər kəndindən olan əsgər Səmədov Elşən Səlim oğlu və Şamaxı şəhərindən olan Zəkərəyev Nazim Nadir oğlu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunublar.



Medallar tədbir iştirakçılarının alqışları altında şəhidlərin valideynlərinə təqdim edilib.

Şəhid valideynləri diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Sonra Abdulla Qurbaninin sözlərinə yazılmış mahnı və marşlar əsasında hazırlanan "Lələtəpə fatehləri", "Bayraqtəpə qartalları" və "Qəhrəman Tərtərim" videoçarxları nümayiş etdirilib. Abdulla Qurbani müəllifi olduğu "Ruhumuzun qələbəsi naminə" və "Dvajdı qeroy sovetskoqo soyuza Azi Aslanov" kitablarını rayon icra hakimiyyətinə hədiyyə edib.

# Qarabağ müharibəsi əlilləri yeni mənzillərlə təmin ediliblər

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Xaçmaz rayonunda Qarabağ müharibəsi əlillərini yeni fərdi yaşayış evləri ilə təmin edib.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, bununla bağlı keçirilən tədbirdə müharibə əlilləri və şəhid ailələrinin etibarlı sosial müdafiəsinin təmin edilməsinin Azərbaycan Prezidenti İlham Əliyevin sosial siyasətinin mühüm istiqamətlərindən olduğu vurğulanıb, bu təbəqələrdən olan insanların sosial rifah halının yaxşılaşdırılması istiqamətində görülən işlərdən bəhs olunub.

Tədbirdə ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşlara, eləcə də bu döyüşlərdə şəhid olmuş insanların ailələrinə dövlət qayğısının mütəmadi olaraq artırılmasının ümumən respublika ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandığı vurğulanıb. Müharibə əlilləri və şəhid ailələrinin maddi təminatlarının gücləndirilməsi istiqamətində görülən işlərdən də söz açılıb, onlara yönələn sosial ödənişlərin mütəmadi olaraq artırıldığı, bu təbəqələrdən olanların qanunvericiliklə bir sıra imtiyazlara malik olduqları diqqətə çatdırılıb. Əlilliyi olan insanların, o cümlədən müharibə əlillərinin tibbi-sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində də mühüm işlərin aparıldığı qeyd olunub.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri onların həyat şəraitlərinin yaxşılaşdırılmasına, yeni mənzillərlə təmin edilmələrinə göstərdiyi yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

# Ermənistanın hərbi qulluqçusu düşmən ordusunda hökm sürən özbaşınalıq nəticəsində yaralanıb

Ermənistan kütləvi informasiya vasitələrinin guya Azərbaycan silahlı bölmələrinin iyulun 23-nə keçən gecə saat 00.10-da atəşkəs rejimini pozması nəticəsində erməni hərbi qulluqçusu Mqer Çiloyanın yaralanması barədə yaydığı məlumat həqiqətə uyğun deyil.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin məlumatında bildirilib ki, Azərbaycan Silahlı Qüvvələri atəşkəs rejiminə riayət etməklə cəbhə xətti boyu əməliyyat şəraitinə tam nəzarət edir.

Qeyd olunub ki, M.Çiloyanın yaralanmasının Ermənistan ordusunda hökm sürən özbaşınalıqlar və nizamnamədən kənar münasibətlər səbəbindən baş verməsi şübhə doğurmur.

Ordu və cəmiyyət

# “Yazıçı taleyüklü məsələlərə biganə qala bilməz”

*Rubrikamızın qonağı romanları, hekayələri maraqla oxunan çağdaş Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən biri yazıçı Elçin Hüseynbəylidir.*



***- Elçin müəllim, kifayət qədər şeirlər yazılıb. Sizin Vətən haqqında yazılan hansı şeirdən daha çox xoşunuz gəlir?***

- Düzü, bu barədə heç zaman fikirləşməmişəm, amma Vətən həmişə düşüncəmdədir. Yəqin ki, Səməd Vurğunun "Azərbaycan" şeiri olar. Bir də Məmməd Arazın eyni adlı şeiri. Bir də ki, Vətəni şeirlə sevmirlər, bəlkə də şeir vasitəsilə "öyrənirlər", desək, yaxşı olar.

***- Bəzən Vətən və qəhrəmanlıq sözləri sinonim kimi səslənir. Belə təəssürat yaranır ki, Vətəni saxlayan, qoruyan qəhrəmanlıqdır, qəhrəmanlardır.***

- Bu, assosiasiya, görünür, "Vətəni qəhrəmanlar qoruyur" düşüncəsilə bağlıdır. Yəni, "torpaq, uğrunda ölən varsa, Vətəndir".

***- Sizin "Ağ-qara" kitabınıza Qarabağ hadisələri ilə bağlı hekayələr daxil edilib. Kitabda "qara" hekayələr daha çoxdur. Ümumiyyətlə, bu hekayələrə "ağ" və "qara" rənglərini vermək yazıçı fantaziyasıdır, yoxsa siz hekayələri mövzusuna uyğun sıralamısınız?***

- Mövzuya uyğun sıralamışam. Mənim bəzi hekayələrim yumor və ironiya üstündə köklənib. Yəni, insan bəzən öz problemlərinə, qorxaqlığına, fərasətsizliyinə ironiya ilə yanaşmalıdır. Digər bir tərəfdən, Qarabağla bağlı ürək dağlayan elə hadisələr var ki, ona gülmək olmaz, mən onları qara rəngdə görürəm və yazıram.

***- Yəqin ki, bu hekayələr şahidi olduğunuz, yaxud eşitdiyiniz hadisələrin bədii inkasıdır.***

- Yazıçı bədii faktla ədəbi faktın arasındakı sərhədi elə itirməlidir ki, sonradan özü də nəyin həqiqət, nəyin uydurma olduğunu ayırd edə bilməsin.

***- "Qocanın axdığı gün" daha üzücü və ağrılı mövzudur. Əgər onun yurdunu qəsb etməsəydilər, qocanın ömrü belə faciəli sonluqla tamamlanmazdı. Mənə elə gəlir ki, həm bu, həm də o biri hekayələr bir yazıçının işğala, müharibəyə etirazıdır.***

- Bayaqkı sualın davamı kimi deyim ki, belə bir qoca haqqında mənə danışıblar, amma mən onu hekayə kimi işləmişəm. Digər tərəfdən, yazıçı həmişə ədalətsiz müharibənin əleyhinə olmalıdır. Yazıçı millətin vicdanı hesab edilirsə, belə taleyüklü hadisələrə biganə qala bilməz.

***- Ermənilər sizin bu kitabda yer alan "Gözünə gün düşür" hekayənizi də "özəlləşdirmişdilər".***

- Onlar belə bir kino çəkmişdilər. Adını çəkdiyin hekayənin süjetini özlərinin xeyrinə dəyişmişdilər. Bunu dolayısı yolla etiraf da etmişdilər. Maraqlananlar rus dilində Vikipediyaya girib, "Solntse byot v qlaza" yazsalar, həmin etirafı oxuya bilərlər. Deyim ki, bizdə də həmin hekayə əsasında qısametrajlı "Yol" filmi çəkilib.

***- Sizcə, Qarabağ müharibəsi mövzusu ədəbiyyatımızda necə əks olunur?***

- Qarabağ mövzusunda kifayət qədər yazılıb. Sadəcə "necə yazılıb" sualı meydana çıxır. Qarabağ mövzusunda elə yazılmalıdır ki, hər bir millət onu doğru anlaya bilsin. Hər kəsin öz həqiqəti var, amma sən öz həqiqətini elə motivləşdirməlisən ki, sənin həqiqətin daha ədalətli görünsün. Yəni, şüarlarla yox, məntiq və sənətkarlıqla uğur qazana və başqalarını inandıra bilərsən.

***- Bir çox yazıçılar var ki, nəsrə şeirdən gəlirlər. Bəziləri isə əksinə, nəsrdən şeirə keçirlər. Amma siz nəsrdə möhkəmlənmisiniz. Belə bir "keçid" gözlənilmir ki?***

- Mən də hamı kimi uşaqlıqda şeir yazmışam, amma ondan öncə, üçüncü sinifdə oxuyanda Cəmşid Əmirovun "Qara volqa" əsərindən təsirlənib bir naşı hekayə də yazmışdım. Böyüyəndə nəsrə ehtiyac duydum və yazdım. İndi də bu sahədəyəm. Dramlarımla və publisistik yazılarımla da tanışsan, yəqin. Ancaq bir sirr açım ki, hərdən şeir də yazıram və onların çoxu yumor üstündə köklənib.

***- Şarl Bodlerin belə bir fikri var: "Əsl ədəbiyyatçı ədəbiyyatdan qorxur." Sizin ədəbiyyatdan qorxduğunuz günləriniz olmayıb ki?***

- Rəhmətlik yazıçı dostum Eyvaz Əlləzoğlu deyirdi ki, sənin xoşbəxtliyin ondadır ki, sözdən qorxmursan, ona yuxarıdan aşağı baxırsan, mənsə sözdən qorxuram və ona aşağıdan yuxarı baxıram. Əslində, söz hər şeydən üstün olduğuna görə hamı ona yuxarıdan aşağı baxır, sadəcə, nəsr yazanda sözdən xəmmal kimi istifadə etməyi bacarmalısan.

***- Deyirlər ki, elm keçmiş zamanla köhnələ bilər, bədii əsərsə əbədidir. Sizcə bədii əsərə əbədilik verən nədir?***

- Elə deməzdim: elm də əbədidir. Yaxşı əsərlər də əbədidir, hansı dövrdə yazılmağından asılı olmayaraq. Əsərə əbədilik verən də, yəqin onun bütün dövrlər üçün aktual olmasıdır, yəni, hisslər üstündə köklənməsidir.

***- Bunun əksini söyləyənlər də var. Oxuduğum məqalədən bu cümləni yazıb saxlamışam: "Ədəbiyyat bədii yolla dünyanı dərk etməyə can atan elmdir."***

- Ədəbiyyat dünyanı dərk etməyə can atmır, ədəbiyyat dünyanın necə olduğunu göstərməyə çalışır.

***- Aprel döyüşləri həm ölkəmizdə, həm də dünyada böyük əks-səda doğurdu. Ermənilər ağır itki verib geri çəkildilər, ordumuzun gücünü, qüdrətini gördülər. Döyüşlər zamanı sizin doğulub boya-başa çatdığınız Cəbrayıl rayonunun bir hissəsi düşməndən azad edildi. O günlər hansı hisslər keçirdiniz?***

- Həmin gün, yəni, aprelin 2-də yaxınlarımla birlikdəydik. Çox sevinirdik, bəzilərimiz planlar da qururdu. Biri deyirdi ki, kəndin filan yerində məscid tikdirəcək, biri söz verirdi ki, yol çəkdirəcək. O hissləri ifadə etmək çox çətindir. Aprel döyüşlərindən sonra xalqın döyüş əzmi yüksəldi, çünki xalq öz torpağını geri qaytarmaq gücünə bir daha inandı.

***- Yaradıcılıq işləriniz necə gedir? Mətbuatdan öyrəndiyimə görə Qarabağın keçmişindən və bu günündən bəhs edən "Yenə iki od arasında" adlı roman üzərində işləyirsiniz. Bu barədə oxucularımıza, qısaca da olsa məlumat verməyiniz yaxşı olardı.***

- Roman bitib, "Azərbaycan" jurnalının sentyabr-oktyabr saylarında dərc olunacaq, noyabrda isə kitab şəklində çıxacaq. Əsasən Qarabağ tarixindəndir və Yusuf Vəzir Çəmənzəminlinin xatirəsinə həsr olunub, əsər boyu onun həyatı qırmızı xətt kimi keçir.

***- Zabit və əsgərlərimizə ürək sözləriniz.***

- Gün o gün olsun ki, işğal altında olan torpaqlarımıza zəfər bayraqlarını sancsınlar və təbii ki, özlərini qələbə üçün qorusunlar!

***- Müsahibəyə görə sağ olun.***

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**“Azərbaycan Ordusu”**

---

“Vasitəçilərin ikili standartlar nümayiş etdirməsi nədənsə həmişə erməni tərəfinə sərf edəndə ortaya çıxır”

***Ermənistan tərəfi danışıqlara, vasitəçilərin iştirakı ilə əldə olunmuş razılıqlara nümayişkaranə hörmətsizlik göstərir. Düşmən tərəfi atəşkəs rejimini pozaraq hərbi qulluqçularımızı və mülki əhalini atəşə məruz qoyduqda Azərbaycan tərəfi əvvəllər də vasitəçilərə dəfələrlə müraciət edərək Ermənistanın bu hərəkətlərinə reaksiya verməyə və qarşısını almağa çağırıb.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin tərəflərin atəşkəs rejiminə ciddi riayət etmələri barədə çağırışının şərh edərkən sabiq korpus komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov bildirib.

O, təəssüflə bildirib ki, həmsədrlər Ermənistana qarşı nəinki tədbirlər görməmiş, bizim bu çağırışlara biganə yanaşaraq, heç səslərini belə çıxarmamışlar. Lakin Ermənistan tərəfi öz törətdiyi təxribatlar ucbatından cəbhədə itkiyə məruz qalan kimi dərhal həmsədrlər əl-ayağa düşür, atəşkəs rejiminə ciddi əməl edilməsi barədə bəyanatlar verirlər. Ermənistana xoş gəlsin deyə, onun işğalçılıq siyasətini davam etdirdiyini bildikləri halda belə açıq-aydın ikili standartlar nümayiş etdirirlər.

Yaşar Aydəmirov deyib: "Əgər kimsə Azərbaycanın erməni tərəfinin təxribatlarına, atəşkəs rejiminin Ermənistan silahlı qüvvələri tərəfindən kobud şəkildə pozulmasına səssiz qalacağını düşünürsə, səhv edir. Bir hərbçi kimi bu hərəkətlərin cavabsız qalmayacağına inanıram."

---

# Hərbi hissələr sərinləşdirici avadanlıqlar və vasitələrlə təchiz edilir





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən isti yay günlərində şəxsi heyətin, xüsusilə də gənc əsgərlərin sağlamlığının qorunması, rahatlığı və normal istirahət şəraitinin təmin olunması məqsədilə hərbi hissələr sərinləşdirici avadanlıqlar və vasitələrlə təchiz edilir.

Görülən tədbirlər nəticəsində əsgər yataqxanaları, yeməkxanalar, digər inzibati binalar və poliqonlardakı sinif otaqlarında müasir tipli kondisionerlər quraşdırılıb. Eyni zamanda şəxsi heyətin günəş şüalarından daldalanması üçün hərbi hissələrin ərazisində müvəqqəti kölgəliklər və su duşları quraşdırılıb, hərbi qulluqçular qablaşdırılmış içməli su ilə daim təmin olunurlar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Peşəyə vurğun olanda...

***Avtomobil parkında qaynar həyatdı. Bir tərəfdə növbətçi çıxışa gedən maşınların sənədlərini, digər tərəfdə isə təmir taqımının şəxsi heyəti texnikaların sazlığını yoxlayır... Hərbçilərin bu cür gündəlik fəaliyyəti onların xidmətə olan məsuliyyətindən irəli gəlir. Avtomobil parkında hərbi qulluqçuların fəaliyyəti heç də döyüş növbəsində dayanan əsgərlərin xidmətindən az əhəmiyyət kəsb etmir.***



Cəbhə bölgəsində yerləşən birləşmənin avtomobil parkında hər gün belə qızğın iş gedir. Baş leytenant İlyas İlyasov təmir taqımının xidmətindən danışaraq qeyd etdi ki, şəxsi heyətin çalışqanlığı, xidmətə məsuliyyəti sayəsində bütün avtomobillər saz vəziyyətdədir. Çıxışdan qayıdan hər bir avtomobil sürücünün iştirakı ilə texniki baxışdan keçirilir. Maşının sazlığına tam əmin olunduqdan sonra onun növbəti çıxışına icazə verilir.

Zabit onu da qeyd etdi ki, ordu həyatını avtomobilsiz təsəvvür etmək mümkün deyil. Bu il aprel döyüşləri zamanı avtomobil xidmətinin rolunu buna nümunə olaraq göstərdi. "Döyüş öncəsi bütün texnikalarımız saz vəziyyətdə idi. Silah-sursat, ərzaq və digər təminatları vaxtında cəbhəyə çatdırmaq üçün ilk növbədə avtomobil xidməti yada düşür. Gərgin döyüşlər anında sürücülərin fəaliyyəti daha çox diqqət çəkirdi. Sürücülər və təmir taqımı aldıqları tapşırığı vaxtında yerinə yetirdilər. Onların bu cür çevik və cəsarəti komandanlığın da diqqətindən kənarda qalmadı."

Sürücü də, təmirçi də döyüşçüdən fərqlənmir. Onlar gərgin döyüşlər gedən ərazidə istənilən tapşırığı məsuliyyətlə yerinə yetirirlər. Həmişə nümunəvi xidməti ilə fərqlənən sürücülər çoxdur. Gizir Gündüz Süleymanov avtomobillərin təmirinə cavabdehdir. Onun xidmətə necə məsuliyyətli olduğu əməlində görünür. Hər bir texnikanın sazlığı üçün gizir qısa müddətdə tədbir görür və avtomobillər daim çıxışa hazır olurlar.

Biz avtomobil parkında olanda təmir taqımının komandiri gündəlik çıxışda olan avtomobildə yaranmış nasazlığı aradan qaldırırdı. Gizir G.Süleymanova yaxınlaşıb onun fəaliyyəti ilə tanış oluram. O, gündəlik iş geyimindədi. Gəlişimdən yalnız ona yaxınlaşanda xəbər tutdu. Söhbətindən və hərəkətindən bəlli olurdu ki, əlindəki işi vaxtında yekunlaşdırmaq istəyir. Zabit İ.İlyasov bildirdi ki, gizir G.Süleymanov tanıdığım gündən həmişə bu cür işgüzar, bacarıqlı və məsuliyyətlidir. O, daim texnikada olan nasazlığı vaxtında aradan qaldırmağa çalışır, avtomobili çıxışa hazır vəziyyətə gətirməyincə, özündə bir rahatlıq tapa bilmir.

Gizir Gündüz Allahverdi oğlu Süleymanov Yevlax rayonu Xaldan qəsəbəsində anadan olub. İyirmi ilə yaxındır ki, hərbi xidmətdədir. Ayrı-ayrı hərbi hissələrdə xidmət edib. Hazırda cəbhə bölgəsində xidmətini davam etdirir. O deyir ki, həyatda ən çox sevdiyi peşə maşınları təmir etməkdir. Müddətli həqiqi hərbi xidməti başa vurandan sonra anlayıb ki, hərbi texnikaların təmiri ilə məşğul olmaq onun üçün daha şərəflidir. Bunun üçün hərbi hissəyə müraciət edib. Onu gizirlər məktəbinə göndəriblər. Doqquz ay gizir hazırlığı kursu keçəndən sonra xidmət yerinə göndərilib. İlk gündən nümunəvi xidmət edəcəyini qarşısına məqsəd qoyub. Gizir G.Süleymanov deyir:

- Başlıca məqsədim vəzifəmin öhdəsindən layiqincə gəlməkdir. Bunun üçün daim bilik və bacarıqlarımı təkmilləşdirirəm. Tabeliyimdə olanların fəaliyyətinə nəzarət edirəm. Burada maşın elektriki, mühərrik təmiri, dəmirçi, çilingər, akkumlyator və başqa sexlər fəaliyyət göstərir. Öz işini sevən bacarıqlı hərbi qulluqçularla xidmət edirəm. Bizim birgə fəaliyyətimiz nəticəsində bütün avtomobillər həmişə saz vəziyyətdə olur.

Budur, gizir G.Süleymanov daha bir yük avtomobilində olan nasazlığı aradan qaldırır və maşın bir azdan avtomobil parkını tərk edəcək.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr



## Pentaqon yeni robot-at hazırlayır

ABŞ-ın "Boston Dynamics" şirkəti Amerika ordusu üçün ata oxşar döyüş robotu hazırlayır. Dördayaqlı döyüş robotundan hərbi əməliyyatlar zamanı ağır yüklərin daşınmasında və yaralı əsgərlərin təxliyyə edilməsində istifadə olunacaq. Gələn il robot-atın nümayişinin nəzərdə tutulmasına baxmayaraq, artıq o ikili təyinat alıb. Qurğu formal olaraq sənədlərdə L-S3 təyinatını alıb. Bu ingiliscə "Leqqed Squad Support System", yeni bölmələrin yeriyən dayaq sistemi adlanır. Qeyri-rəsmi adı isə "Alphadoq" - yəni "Böyük it"dir. Xarici görünüşünə görə onu böyük bir başsız itə və yaxud da ata oxşadırlar. Yeni robot-at qumlu, daş-kəsəkli yerlərdən asanlıqla keçə bilər. Robot-atın dördayaqlı olması onun davamlılığını təmin edir.

Ekspertlər döyüş əməliyyatlarında onun səssiz hərəkət etməsini yüksək qiymətləndirirlər. Robotun yükqaldırma gücü 180 kiloqram təşkil edir və 30 kilometrə qədər məsafəni qət edə bilər. Onun bu göstəriciləri xüsusi təyinatlı qruplara və digər bölmələrə hərbi əməliyyatlarda az itki verməklə səmərəli döyüş aparmağa imkan verə bilər.



## Bombardmançılar üçün təlim meydanı

Krımın Çauda təlim meydanı Rusiyanın Kosmik Hava Qüvvələrinin ilk dəniz poliqonuna çevriləcək. Yüksək rütbəli zabit Viktor Bondarevin TASS-a verdiyi məlumata görə, burada əsasən uzaq məsafəli Tu-22M3 bombardmançıları məşq edəcək. Onun sözlərinə görə, poliqon gecə-gündüz və bütün ilboyu fəaliyyət göstərəcək. Təyyarəçilər təlim meydanında bütün növ avia texnikalarla işləyəcəklər. Hərbçilər həm dənizdən quruya tərəf, həm də qurudan dənizə tərəf fəaliyyət göstərəcəklər. Meydanda şəxsi heyətin işinə nəzarət sistemi də quraşdırılacaq. Verilən məlumata əsasən, artıq Rusiya bu yarımadaya döyüş təyyarələrini, gəmilərini və HHM müdafiə sistemlərini, eləcə də quru qoşun qruplaşmasını yerləşdirib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə Prezident qvardiyası ləğv edilib



Türkiyədə hərbi çevriliş cəhdinin qarşısının alınmasından sonra Prezident qvardiyasının buraxılması qərara alınıb.

Bunu Türkiyənin Baş naziri Binəli Yıldırım bildirib. Baş nazir qeyd edib ki, bundan sonra Prezident qvardiyası olmayacaq və buna ehtiyac yoxdur.

## Bağdadda baş verən partlayış nəticəsində ölənlərin sayı 20 nəfəri ötüb



İraqın paytaxtı Bağdadın şimalında terrorçu-kamikadzenin nəzarət-buraxılış məntəqəsinin qarşısında törətdiyi partlayış nəticəsində ölənlərin sayı 20 nəfəri ötüb, 35 nəfər yaralanıb.

Hadisə bazar günü səhər saatlarında əsasən şiələrin yaşadığı Əl-Kadimeyn rayonunda baş verib.

## Almaniyada törədilən partlayış nəticəsində 1 nəfər ölüb, 10-dan çox adam yaralanıb



Almaniyanın Bavariya əyalətinin Ansbah şəhərindəki restoranlardan birinin qarşısında törədilən partlayış nəticəsində 1nəfər ölüb, 10-dan çox adam yaralanıb.

Anadolu agentliyinin məlumatına görə, hadisə yerinə çox sayda polis və xilasedicilər cəlb olunub.

Ansbah şəhər bələdiyyəsinin sədri Carda Seidel jurnalistlərə açıqlamasında hadisəyə ən azı bir partlayıcının səbəb olduğunu söyləyib. Bavariya Daxili İşlər Nazirliyi də bunun bir qəza olmadığını bildirib.

Partlayış törədilən restoranın yaxınında keçirilən musiqi festivalı dərhal dayandırılıb. Festivalda iştirak edən 2 min 500 nəfər ərazidən uzaqlaşdırılıb.

## "Vışeqrad dördlüyü" vahid Avropa ordusunun yaradılmasını təklif edir



"Vışeqrad dördlüyü" vahid Avropa ordusunun yaradılması məsələsini yenidən gündəmə gətirməyi planlaşdırır. Çexiyanın Baş naziri Boquslav Sobotkanın sözlərinə görə, birgə müdafiə ideyası Avropada getdikcə daha çox dəstək qazanır. B.Sobotka "Vışeqrad dördlüyü" ölkələrinin (Çexiya, Slovakiya, Macarıstan, Polşa) hökumət başçılarının iyulun 21-də Varşavada keçirilən danışıqlarından sonra deyib: "Avropanın birgə sərhəd və sahil zolağı mühafizəsini bir il ərzində təmin edə bilmişiksə, deməli, vahid Avropa ordusunun yaradılması layihəsini həyata keçirmək də tamamilə realdır".

## Texasda atışma zamanı 4 nəfər ölüb



ABŞ-ın Texas ştatının Bastrop şəhərində çoxmənzilli yaşayış binasında baş verən atışma zamanı 4 nəfər ölüb, bir uşaq yaralanıb.

Cinayəti törədən şəxs sonda özünə atəş açaraq intihar edib. İnsidentin səbəbləri hələlik açıqlanmır.

Yaralanan uşaq xəstəxanaya çatdırılıb və onun həyatı üçün təhlükə yoxdur.

**AZƏRTAC-ın materialları əsasında**

## Asudə vaxt

# “Biz Qarabağda da qələbə qazanacağıq”

***Silsilə dağların əhatəsində yerləşən Tovuz rayonunun füsunkar təbiəti göz oxşayır. Əzəmətli dağlarda keşik çəkən döyüşçülərimizin yanına tələsirik. İti sürətlə axan dağ çaylarının qətiyyətiylə dağların keşiyində duran yenilməz, qorxmaz, qələbə ruhlu əsgərlərimizlə görüşmək üreyimdəndir...***



Bölmədə sakitlikdir. Hamı verilən tapşırıqla məşğuldur. Ərazidəki səliqə-sahman, təmizlik, şəxsi heyətin nizam-intizamı xidmətin düzgün təşkilinin təsdiqidir. Döyüş növbəsindən qayıtmış əsgərlərin ideoloji otaqda olduğunu öyrənirəm. Buradakı guşə və stendlər göz oxşayır. Ulu öndər Heydər Əliyevin və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əsgərlərlə görüşlərini, ordu haqqında dediyi kəlamları əks etdirən stendlər, Hərbi andın və Dövlət himninin mətnləri əsgərlərə vətənpərvərlik ruhu aşılayır. Milli Qəhrəmanlarımızdan, Vətən uğrunda canını qurban verən şəhidlərimizdən bəhs edən lövhə şəxsi heyətin döyüş ruhunu daha da artırır.

Əsgər Mehdi Əbilov "Azərbaycan Ordusu" qəzetində döyüş postundan yazılmış reportajı oxuyur.

- Xidmətimizi layiqincə yerinə yetirmək üçün hər cür şərait yaradılıb, - deyir gənc döyüşçü. - Asudə vaxtlarımda ən sevdiyim məşğuliyyətlərdən biri də mütaliədir. "Azərbaycan Ordusu" qəzetində silahdaşlarımızın şəkillərini görmək, fikirlərini oxumaq məni qürurlandırır. Bundan başqa hərbi jurnallardan silah və texnikalar, döyüş maşınları və s. haqqında məlumatlar öyrənməyi də sevirəm.

Hərbi xidmətə Bərdə rayonundan çağırılmış əsgər Fərid Həsənli idmançıdır. Qəzetimizin əlavəsi olan "Cəngavər"in səhifələrindən hərbi hissələrdə keçirilən idman yarışlarını həvəslə oxuduğunu bildirir.

- Uşaqlıqdan idmana böyük marağım olub. Hərbi qulluqçular arasında keçirilən idman yarışları haqqında yazılar diqqətimi cəlb edir. "Cəngavər"in yeni nömrələrini səbirsizliklə gözləyirəm.

Əsgər Azər Yaqubov hər dəfə bu otağa daxil olanda, Milli Qəhrəman Mübariz İbrahimovun lövhəsinə fəxrlə baxdığını deyir:

- Mübariz və digər şəhid olmuş silahdaşlarımızın stendinə baxdıqca qürurlanıram. Vətənə bağlılığım, Vətən sevgim daha da artır.

...Şahmat oyunu sona çatır. Qələbə hissinin verdiyi sevinclə gülümsəyən əsgər Səyyac Adıgözəlov deyir ki, hərbi xidmət məni qorxmaz döyüşçü kimi yetişdirir. “Komandirlərimizdən döyüş hazırlığı, silahlar haqqında biliklər öyrənirəm. Asudə vaxtlarımızda isə televizora baxır, qəzet və jurnallar oxumaqla məşğul oluruq.”

Əsgər Sakit Abbasov qalib yoldaşının əlini sıxır:

- Hər oyunda olduğu kimi, şahmat oyununda da bir qalib, bir məğlub olmalıdır. Bu gün Səyyac layiqli qələbə qazandı. Vaxt gələcək, Ali Baş Komandanın əmri ilə biz Qarabağda da qələbə qazanacağıq.

Uca dağlar qoynunda Vətənin keşiyini çəkən əsgərlərimizdə səmimiyyəti gördüm, dönməz Vətən sevgisini hiss etdim. Qalibiyyətin bol olsun, Azərbaycan əsgəri!

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

İyulun 24-dən 30-dək Əmman şəhərində (İordaniya Haşimilər Krallığı) NATO-nun Əməliyyat İmkanları Konsepsiyası proqramı çərçivəsində "məsləhətçi görüş", iyulun 25-dən 29-dək isə Oberammerqau şəhərində (Almaniya Federativ Respublikası) birgə təlim keçmə imkanları üzrə konfrans keçiriləcəkdir.

İyulun 25-dən avqustun 19-dək Saçxere şəhərində (Gürcüstan) "Orta yay dağ hazırlığı" kursu və iyulun 26-dan iyulun 28-dək Mittenvald şəhərində (Almaniya Federativ Respublikası) "Alp qanqalı" təlimi keçiriləcəkdir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***26 iyul 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## Ovqat

# Vətəndaş

*Vətəndaş olmaq üçün vətəndaşlıq vəsiqəsi kifayət eləmir. Şəxsiyyət vəsiqəsi olanların hamısı yaxşı vətəndaş deyil. Vətəndaşlıq Vətən üçün yaşamaq deməkdir. Adını-soyadını bəlkə də hər gün eşitdiyimiz şəhidlərimiz ən dəyərli vətəndaş oldular. Hamımız Vətənə xitabən "Səndən ötrü can verməyə cümlə hazırız" - deyirik. Onlar bunu dedilər də, elədilər də...*

Müharibə, döyüş yaxşı vətəndaş olmanın təsdiqi üçün yeganə şərt deyil...

Atamdan eşitdiyim bir hadisəni xatırlayıram. 1993-cü ildə olub...

Rasim universitetin tələbəsiydi. Ödənişli təhsil alırdı. Birinci kursu bitirən il atası şəhid oldu. Anası növbəti ildə təhsil haqqını ödəyə bilməyəcəkdi. Rasim universitetdən çıxmağı qərara almışdı. Anası razı olmurdu: "Atan istəyirdi ki, mükəmməl təhsil alasan. Onun ruhunu incitmə, oğlum..." - deyirdi.

Anasının razılığıyla dərslər başlanana kimi işləyəcəkdi...

Restoranda işləyirdi.

Müdirin qonağı varmış. Onlara çay aparıbmış. Qonağın bir qədər çaşqınlıqla, bir qədər maraqla, diqqətlə ona baxdığını hiss eləməyib. Sonra biləcəkdi ki, adı Samirdi...

Bir azdan müdir Rasimi çağırtdırıb, bəzi mətləbsiz məsələləri soruşub. Samir onu yenə diqqətlə süzüb, "İnsan insana bu qədər oxşayarmış, deyəsən..." - düşünüb. Ürəyinə nəsə damıb. Gümanlarını dəqiqləşdirmək üçün təhsiliylə, oxuyub-oxumadığıyla maraqlanıb.

- İnşaat Universitetinin tələbəsiyəm. Daha oxumayacam, - Rasim çəkinə-çəkinə dillənib.

- Niyə? - Samir təəccüblə soruşub.

- Təhsil haqqını ödəməyə imkanımız yoxdu. Ödəyə bilməyəcəyik, - səsində hiss olunması çətin olan bir qəhər olub.

- Atan işləmirmi? - Samir bayaqdan bəri öyrənmək istədiyini dəqiqləşdirmək üçün tələsik soruşub.

- Atam iki ay əvvəl Ağdamda şəhid oldu.

Samirin ürəyinin bir teli qırılıb elə bil: "Vasifin oğlusan, oxşatmışdım. Elə kişinin oğlunu boynubükük qoya bilmərəm. Oxuyacaqsan, oğlum. Atan arzuladığı kimi oxuyacaqsan. Mənim kim olduğumu bilmədən oxuyacaqsan. Atan igid kişiydi, qürurlu kişiydi. Sən də qürurlu böyüyəcəksən..." - səsini nə dostu eşidib, nə də Rasim...

Samir Vasifi yaxşı xatırlayırdı. Cəsarətli, qorxu bilməz döyüşçüydü. Döyüşlərin birində beş-altı erməninin qarşısını təkbaşına kəsmişdi. Həmin döyüşdə mühüm mövqe qələbəsi qazanmışdıq...

Rasim bilmədi, bilməyəcəkdi ki, Samir atasıyla eyni hərbi hissədə xidmət edib. İki il əvvəl yaralanıb tərxis olunub...

İki gündən sonra müdir onu yanına çağırtdırdı:

- Sabahdan başqa restoranda işləyəcəksən. Dostuma işçi lazım idi, səni məsləhət bildim. Axşamlar işləyəcəksən. Müdirin köməkçisi kimi. Maaşın burdakından xeyli çox olacaq. Davranışın, səmimiliyin Samirin xoşuna gəlib. Təhsil haqqını ödəyəcək, az-az maaşından qaytaracaqsan...

Müdir bilirdi ki, Samir bu pulu borc vermir, şəhid olmuş döyüşçü yoldaşının oğluna bağışlayır, müəyyən bəhanələrlə almayacaq. Onun qüruruna toxunmasın deyə verdiyi pulun adını borc qoyacaq....

Rasim çaşqınlıqla dinləyib. Eşitdikləri yerə-göyə sığmayan sevinc burulğanına dönüb, ürəyi bu burulğana necə tablaşıb görəsən? Belə bir təsadüfə inana bilməyib. Bu təsadüf onun ömrünün axarını dəyişəcəkdi. Atasının ruhunu da üzüntülərdən xilas eləyəcəkdi.

...Rasim Samirin yaxşılığını son nəfəsinəcən unutmayacaqdı. "Əmi oldu mənə, dayı oldu. Qohumluğu çatmaya-çatmaya, yaxından tanımaya-tanımaya hoyuma yetdi..."

Rasim Samirlə atasının döyüş yoldaşı, səngər yoldaşı olduğunu heç zaman bilməyəcəkdi...

Onu bilirdi ki, Samir yaxşı insandı, yaxşı vətəndaşdı...

**Gülsurə HÜSEYNOVA**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 435
Nüsxə 4650